## Zaur Mustafayev



*Zaur Əlimuxtar oğlu Mustafayev – 1983-cü il oktyabrın 27-də doğulub. Azərbaycan İctimai-Siyasi Universitetinin Jurnalistika fakültəsini, ikinci təhsil kimi Azərbaycan İqtisad Universitetinin maliyyə fakültəsini bitirib. "Trend" İnformasiya Agentliyində fotomüxbir vəzifəsində çalışır.*

**Z.M.** – Mediada işləmək çox maraqlıdır. Fotoreportaj çəkəndə o mövzuya uyğun maraqlı kadrlar axtarırsan ki, uğurlu alınsın. Fotomüxbir peşəsi isə xüsusi istedad tələb edir. Həyatın hər anı müxtəlif maraqlı kadrlarla doludur və əgər yanında fotoaparat varsa, həmin anı tuta bildinsə, xoşbəxt fotoqrafsan, amma bəzən də gözün görə-görə məqamı qaçırırsan və təəssüflənirsən...

Ümumiyyətlə, idman yarışlarında daha çox maraqlı şəkillər çəkmək olur. Fotoqraf işləyəndə artıq bilir ki, istədiyi kadrları çəkib, yəni reportaj hazırdır. Bəzən kadr özü səni tapır, alınıb-alınmaması an məsələsidir. Alınanda, xoşbəxt olursan və hiss edirsən ki, zəhmətin hədər getməyib...

Zövqlər müxtəlifdir. Hər fotoqrafın öz görmə bucağı var. İki fotoqraf bir mövzunu elə çəkər ki, sanki müxtəlif reportajlardır. Gün ərzində şəhərdə ətrafda gördüyün hər baxış bir kadrdır. Sadəcə bu kadrı görmək və yaratmaq lazımdır. Məncə, fotoqraflar həmkarlarının çəkdiyi şəkillərə və reportajlara baxmağı ona görə xoşlayır ki, necə, hansı rakursdan çəkdiyini, nə yenilik etdiyini görsün.

Belə bir deyim var: sənətin pisi yoxdur, sənətkarın pisi var. Həmişə çalışmalısan ki, sənətini sevəsən, ürəkdən yanaşasan. Bu tək fotoqrafiyada deyil, bütün peşələrdə belədir. Mən sənətimi çox sevirəm və fəxr edirəm ki, tale bu sənətdə çalışmağıma imkan verib. İnanın, "bezməmisən ki", -deyə soruşanlar da var, cavab verirəm: qətiyyən!




Adamlar var, telefonla elə çəkir, elə bil peşəkar fotoaparatla çəkib. Kadrı düzgün qurur, zövqü var.

Fotoqrafların təlim keçməsi də şərtdir. Çox şey öyrənirsən. Hər mövzunun öz çəkiliş qaydaları var. Mən 2019-cu ildə çalışdığım "Trend" İnformasiya Agentliyinin dəstəyi ilə Moskvada keçirilən TASS İnformasiya Agentliyində MDB ölkələrinin İnformasiya agentliklərinin foto seminarında iştirak etdim, çox böyük faydası oldu. Orada bizə fotoqrafiyanın bir çox incəliklərini öyrətdilər. Hətta mövzu və tapşırıqlar verirdilər, sonra da hər birimizin çəkdiyi fotoları müzakirə edirdik, qiymətləndirir, doğrusunu-yanlışını tapırdıq. Çox maraqlı seminar idi.

Fotomüxbir həyatımda xeyli maraqlı tədbirlər olub.

2017-ci il İslam Oyunları Foto müsabiqəsində mükafatlandırılmışam.

"Gilavar" Azərbaycan Foto Klubunun təşkil etdiyi beynəlxalq foto müsabiqələrdə və sərgilərdə iştirak etmişəm.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin yaranması münasibətilə foto musabiqənin qalibi olmuşam və sair.

Amma xəbərlə işləməyi sevirəm. Xəbərdə operativlik çox vacib amildir. Müxbir xəbər yazır, foto isə gecikir – bu, minusdur. Şəkilli xəbər oxucu üçün daha maraqlıdır. Telefonla çəkilən təcili şəkil xəbərin reytinqini həll edir bəzən...

Bu işin daha bir həssas məqamı var məncə, o da müəllif hüquqlarıdır. Xarici ölkələrdə bunun böyük əhəmiyyəti var. Müxbirlə fotoqrafın əməyi eyni qiymətləndirilir. Bizdə isə bəzən şəkli saytdan götürürlər, amma fotoqrafın adı qeyd edilmir...



Bədii gimnast

## Cəlal Firidunov



*Cəlal Vaqif oğlu Firidunov – 1984-cü ildə Bakıda anadan olub. 20 saylı məktəbdə orta təhsil, Azərbaycan Texniki Universitetində "Maşınqayırma və material emalı" ixtisası üzrə ali təhsil alıb. Hərbi xidmətdən qayıtdıqdan sonra foto çəkməyə olan böyük həvəsi onu foto kurslarına getməyə vadar edib. 2010-cu ildən Azərbaycan Dövlət informasiya Agentliyində (AZƏRTAC) Fotojurnalist kimi çalışıb. Hazırda "Azərişıq" ASC-də işləyir.*

**C.F.** – 2010-cu ildə "AZƏRTAC"a fotomüxbir kimi gəlişim həyatımın dönüş nöqtəsi idi. Foto sənətinin gözəl ustadlarını tanıdım, müəyyən incəlikləri öyrəndim. Bir çox beynəlxalq tədbirlərin çəkilişlərində iştirak etdim. Yerli və beynəlxalq foto müsabiqələrinə qatıldım. Desəm ki, ölkənin ən nüfüzlu Media orqanı AZƏRTAC mənim üçün bir Akademiya oldu, yanılmaram. Fəxr edirəm ki, həyatımın 8-9 ilini bu təşkilatda keçirdim.

Məncə sənətindən asılı olmayaraq hər bir insan həm də öz işindən zövq almalıdır.

Əks halda bu, adamın öz işi ilə məşğul olmadığı deməkdir. Foto sənəti bəzilərinə kənardan çox asan görünür, elə bilirlər ki, bir aparatdır, bir də düymə, sıxırsan və kadr əmələ gəlir. Elə deyil axı... Bu işlə məşğul olanlar onun nə qədər mürəkkəb olduğunu yaxşı bilir. Çətinliklər də olur. Yeri gələndə yağışa da, istiyə-soyuğa da düşürsən, yerdə də uzanırsan, özündən narazı da qalırsan. Məsələn, mən təbiət çəkilişlərini çox xoşlayıram. Rayonlarda hava çəkiliş üçün bəzən əlverişli olmur, planlar dəyişir. Dilxor olursan. Buna baxmayaraq mən işimdən çox böyük zövq alıram. Sadəcə işləməlisən. Əvvəllər həvəskar kimi işləsəm də sonra kurslara yazıldım, sertifikatlar aldım. Zamanla fotoqrafiya mənə fotolardakı kimi həyatımda da dəqiqliyi, dürüstlüyü öyrətdi, əsl dostlar qazandırdı, sanki dünya ilə təmasa girdim, gözəlliyi daha aydın görməyə başladım. Mən nədənsə nə çəkiliş prosesində, nə də dərhal sonra çəkdiyim fotolara baxmağı heç xoşlamıram, bir müddət keçəndən sonra baxanda daha yaxşı analiz edib doğru qərara gəlirəm, qüsurlarımı görə bilirəm.

Sənətimizin ən gözəl xüsusiyyətlərindən biri də odur ki, biz də cəmiyyətin hər bir fərdi kimi üzərimizə düşən vətəndaşlıq missiyasını yerinə yetiririk. Hər birimizin kiçik də olsa çiyninə düşən bir yükü var axı... Biz də tariximizi yaddaşa köçürüb onu gələcək nəsillərə ötürürük. Gənclər öz ölkəsinin tarixini fotolarda da görə bilir. Məni məsələnin bu tərəfi də çox qürurlandırır. Elə bilirəm ölkəmin taleyində mənim də payım var. "AZƏRTAC"da çalışdığım illərdə çox böyük tədbirlərdə çalışdım. İdman yarışları, mədəniyyət forumları və sair. O illərin hər günü həyatıma yazılıb.

Hazırda "Azərişıq" ASC-nin İctimaiyyətlə əlaqələr şöbəsində mütəxəssis kimi çalışıram. Mediada ən əsası operativlik prinsipi idi. Tədbirdən öncə çox mehriban olan həmkarlar iş prosesində sanki bir-birini tanımır, hər kəs ən öndə, ən gözəl kadrı çəkməyə cəhd eləyir. İnanılmaz bir hissdir.

"Azərişıq"ASC-də işin öz spesifik xüsusiyyətləri var. Həmişə yollardayıq, İşıq aparırıq! Ölkəmizin taleyində baş verən hadisələr, II Qarabağ müharibəsində qazandığımız möhtəşəm Qələbə ilə əlaqədar da tez-tez rayonlara ezam olunuruq, bərpa işləri görürük və onları fotoyaddaşa köçürürük. Bu Qələbə həyatımızda və işimizdə yeni səhifə deməkdir. Bu münasibətlə xalqımızın gözü aydın olsun, şəhidlərə rəhmət, qazilərə şəfa arzulayıram.

Qaldı ki, "Gilavar" Foto Klubu biz həmkarları bir araya gətirib ünsiyyət qurmaq, yeni peşəkar müstəvilər aşkar edib Azərbaycan Fotoqrafiyasını dünyaya tanıtmaq işində çox gözəl platformadır. Sağ olsunlar! Mənim üçün də onlarla çalışmaq, dost olmaq maraqlı və şərəflidir. ❖



Qızıl payız

**Zöhrə Əliyeva**